# Erməni işğalçılarının növbəti hədəfi pambıqtəmizləmə zavodu oldu

Dünyanın güclü dövlətlərinə, siyasi liderlərinə "Azərbaycanı durdurun" deyə dil tökən Ermənistan rəhbərliyi eyni zamanda kəndləri, şəhərləri, dinc əhalini, mülki obyektləri, məktəb və uşaq bağçalarını, xəstəxanaları artilleriya atəşlərinə, raket zərbələrinə hədəf seçməklə törətdiyi dəhşətli cinayətlərinin miqyasını genişləndirməkdədir.





Xəbər verildiyi kimi, düşmən hücumlarına mətanətlə sinə gərən Tərtər oktyabr ayının 19-da yenidən işğalçıların artilleriya hücumuna məruz qalmışdır. Bu dəfə əsas hədəf rayonun Azadqaraqoyunlu kəndi ərazisində yerləşən pambıqtəmizləmə zavodu olmuşdur.

Zavodun direktoru Feruz Hacıyev:

- Döyüş meydanında zəifliyini, məğlub olduğunu görən ermənilər yaşayış məntəqələrini, mülki obyektləri, dinc əhalini atəşə tutmaqdan çəkinmir. Oktyabrın 19-da günorta saatlarında düşmən bizim zavodu şiddətli artilleriya atəşinə tutdu. Müəssisənin ərazisinə düşən 30-dan çox mərmi binaları, avadanlıqları yararsız hala saldı, yanğın törətdi. Yanğın nəticəsində 600 tondan çox mahlıc külə döndü. Təsadüfdən zavodun işçiləri arasında həlak olan, xəsarət alan olmadı. Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənləri həyatlarını təhlükəyə ataraq, sözün həqiqi mənasında, fədakarlıq göstərdilər.

İstehsal müəssisəsini, dinc işçiləri hədəf seçməsi bir daha erməni barbarlarının iç üzünü göstərir. Eyni əraziyə eyni vaxtda 30-dan çox mərminin atılması onu deməyə əsas verir ki, düşmən bu hədəfi məqsədyönlü şəkildə seçib. Niyyəti dinc əhalini qətlə yetirməklə bərabər, iqtisadiyyatımıza zərbə vurmaq olub. Amma bu zaman unudublar ki, belə terror əməllərlə Azərbaycan iqtisadiyyatına zərbə vurmaq mümkün deyil. Qoy, mənfur düşmən bu əməliylə əlimizi işdən soyutduğunu düşünməsin, əksinə, özünə qarşı nifrətin daha da artdığının fərqində olsun.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.-21 oktyabr.- S.4.